# Eşq heyrətdir, duyumdur

## Dolandım

Ay gedər gün gətirməyə,
Yaz gələr ot bitirməyə.
Əli ələ yetirməyə
Ay dolandım, gün dolandım.

Bu çöllərdə azıb quzum,
Yara-yara göynər duzum.
Xəzan qəmi çəkib yazım,
Sisdən keçdim, çən dolandım.

Düşmədim hər yel dalınca,
Vurub-yıxan sel dalınca.
Adım gəzən dil dalınca
Yol aradım, ün dolandım.

Könlümdəki eşq toxumu
Çin göyərdə sirr yuxumu.
Bişirmədi bəxt yuxamı,
Ömür biçdim, dən dolandım.

## Gözlərinin şöləsi

Qəlb nurundan bir nişan
Gözlərinin şöləsi.
Kəhkəşandır, kəhkəşan
Gözlərinin şöləsi.

Odu şimşək çaxışı,
Damlası eşq yağışı.
Sevən könlün baxışı
Gözlərinin şöləsi.

Eşq heyrətdir, duyumdur,
Sinəm oyum-oyumdur.
Gerçəyimdir, röyamdır
Gözlərinin şöləsi.

Gözəlliyin özüdür,
Dünyanın dan üzüdür,
Bir ilahi izidir
Gözlərinin şöləsi.

## Sonet

Sənli günlərimi gəzirəm, gülüm,
Sənə boylanıram sənsizliyimdən.
Kaş ki çıxmayaydın mənim qarşıma,
Səni kimdən sorum, kimdən sorum mən?!

Gözümü dumanmı bağlayıb yoxsa?!
Mən səni bir qəfil çəndə itirdim.
Ayağın dəyən hər yolu dolaşdım,
Həsrət çiçəyini dərib gətirdim.

Göz yaşım yandırır, yandırır məni
Gəzirkən ümidlə kədər arası.
Üzümə bağlanıb yolun yarısı.

Göylər qapanıbdır, yer də dağınıq,
Bir yönüm zülmətdir, bir yön uçurum.
İşıq yox, ruhumu hara uçurum?!...

## Şəkil

Bir şəkil çəkmişəm, bir şəkil,
Sevgidə həsrəti çəkmişəm.
Yol da var şəkildə, uzun yol,
O yola gözümü dikmişəm.

Bir yerdir, iynətək itən mən,
Bir yerdir, daş olub bitən mən,
Ağrıya, acıya yetən mən,
O yerə bir ürək əkmişəm.

Qalmayıb canımın heç tabı,
Güman nə, axtaram savabı?
Bir oxu yazdığım məktubu,
Ona bir xatirə bükmüşəm.

Şəkildə bir mənəm, bir də sən,
Hər iki dünyadır, ruh və tən.
Bu eşqə rast salma duman, çən,
Könlümdən göz yaşı tökmüşəm.

Yarına yetişən sevinir,
Arzular ümidə güvənir.
Dağıtma bu eşqin evini,
Qəlbimdə bir məbəd tikmişəm.

## Həsrət

Həsrət
gözlərin baxa-baxa
əllərinin yetə bilmədiyi,
yolları dolanan baxışlarının
üzünə gülmədiyi,
taleyinin
qəlbindən axan
göz yaşlarını silmədiyi
həyatdır,
için-için kədəri oxşayırsan...
Həsrət
sevginin ölmədiyi
nicatdır,
özündə yaşadırsan...

*Zaur ƏRMUĞAN*



Kredo .- 2023.- 22 fevral.- S.13.